*UOT 37.01*

***Afət Şövkət qızı Namətova***
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*E-mail: a.namatova@adu.edu.az*
*ORCID ID: https://orcid.org/0009-0002-8011-0949*
*https://doi.org/10.69682/arti.2026.93(3).40-43*

# EKOLOJİ TƏHSİL MÜASİR PEDAQOJİ PROSESİN PRİORİTET İSTİQAMƏTİ KİMİ

***Afat Shovkat Nametova***
*senior lecturer at the Azerbaijan University of Languages,*
*doctor of philosophy in pedagogy*

# ENVIRONMENTAL EDUCATION AS A PRIORITY DIRECTION OF THE MODERN PEDAGOGICAL PROCESS

***Афат Шовкат гызы Наметова***
*старший преподаватель Азербайджанского университета языков*
*доктор философии по педагогики*

# ЭКОЛОГИЧЕСКОЕ ОБРАЗОВАНИЕ КАК ПРИОРИТЕТНОЕ НАПРАВЛЕНИЕ СОВРЕМЕННОГО ПЕДАГОГИЧЕСКОГО ПРОЦЕССА

**Xülasə.** Məqalədə ekoloji təhsilin müasir pedaqoji prosesdə rolu, ekoloji təhlükə anlayışının təlim-tərbiyə sistemində yeri və ekoloji şüurun formalaşdırılmasının nəzəri-metodoloji əsasları araşdırılmışdır. Yerli və xarici mənbələrdə əks olunan elmi yanaşmalara əsaslanaraq, ekoloji təhsilin davamlı inkişafın təmin edilməsində, ekoloji risklərin azaldılmasında və sosial məsuliyyətli şəxsiyyətin yetişdirilməsində mühüm amil olduğu əsaslandırılmışdır. Tədqiqatda müəllifin irəli sürdüyü əsas tezis kimi ekoloji təhlükə anlayışının pedaqoji prosesin əsas kateqoriyalarından biri kimi təqdim edilməsinin zəruriliyi vurğulanır. Nəticə olaraq, ekoloji şüura malik, məsuliyyətli və fəal vətəndaşın formalaşdırılmasının sistemli, demokratik və beynəlxalq standartlara uyğun ekoloji təhsil vasitəsilə mümkün olduğu qənaətinə gəlinmişdir.
***Açar sözlər**: ekoloji təhsil, pedaqoji proses, ekoloji şüur, davamlı inkişaf, sosial məsuliyyət*

**Abstract.** The article examines the role of environmental education in the modern pedagogical process, the place of the concept of environmental safety within the educational system, and the theoretical and methodological foundations of developing environmental consciousness awareness. Based on scientific approaches reflected in both national local and international sources, the study substantiates that environmental education is a significant factor in ensuring sustainable development, reducing environmental risks, and fostering socially responsible individuals. The author's key thesis emphasizes the necessity the research emphasizes, as a key thesis proposed by the author, the necessity of presenting the concept of environmental safety as one of the core categories of the pedagogical process framework. In conclusion, it is argued that the formation of environmentally aware, responsible, and active citizens is possible only through systematic, democratic, and internationally aligned integrated environmental education.
***Keywords:** environmental education, pedagogical process, environmental awareness, sustainable development, social responsibility*

**Аннотация.** В статье рассматривается роль экологического образования в современном педагогическом процессе, место концепции экологической безопасности в системе образования, а также теоретические и методологические основы развития экологического сознания. На основе научных подходов, отраженных как в отечественных местных, так и в международных источниках, исследование обосновывает, что экологическое образование является важным фактором обеспечения устойчи-

вого развития, снижения экологических рисков и воспитания социально ответственной личности. В исследовании, в качестве ключевого тезиса, предложенного автором, подчеркивается необходимость представления концепции экологической безопасности как одного из основных категорий педагогического учебного процесса. В заключение утверждается, что формирование экологически осведомленных, ответственных и активных граждан возможно только посредством систематического, демократичного и международно-ориентированного экологического образования.

***Ключевые слова:*** *экологическое образование, педагогический процесс, экологическое сознание, устойчивое развитие, социальная ответственность*

**Giriş.** Müasir dünyada ətraf mühitin qorunması və davamlı inkişaf prinsiplərinin təşviqi qlobal prioritetlərdən biri kimi diqqət mərkəzindədir. Ekoloji problemlərin mürəkkəbliyi, iqlim dəyişikliyi, təbii resursların tükənməsi və insan fəaliyyəti nəticəsində yaranan ekoloji təhlükələr pedaqoji prosesdə müvafiq bilik və bacarıqların formalaşdırılmasını zəruri edir. Bu baxımdan ekoloji təhsil yalnız təbiətşünaslıq biliklərinin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda sosial məsuliyyət, ekoloji şüur və aktiv vətəndaş mövqeyinin formalaşdırılmasında həlledici rol oynayır.

Tədqiqatın aktuallığı ekoloji təhsilin müasir pedaqoji prosesdə prioritet istiqamət kimi nəzərə alınmasından irəli gəlir. Yerli və beynəlxalq təcrübə göstərir ki, ekoloji təhsil vasitəsilə gənc nəslin ətraf mühitin qorunmasına məsuliyyətlə yanaşması təmin edilir və davamlı inkişaf məqsədlərinə töhfə verilir. Bu kontekstdə elmi tədqiqatın məqsədi ekoloji təhsilin müasir pedaqoji prosesdə yerini, ekoloji təhlükə anlayışının təlim-tərbiyə sistemində funksiyasını və ekoloji şüurun formalaşdırılmasının nəzəri-metodoloji əsaslarını araşdırmaqdır.

Tədqiqatın predmetini ekoloji təhsilin prinsipləri, metodları və formalaşdırdığı şəxsi keyfiyyətlər, obyektini isə müasir pedaqoji proses təşkil edir. Tədqiqatın nəticələri ekoloji şüura malik, məsuliyyətli və sosial baxımdan fəal şəxsiyyətin yetişdirilməsi üçün təhsil siyasətinin inkişafına elmi əsaslar təqdim edə bilər.

**Əsas hissə.** XXI əsrdə insan fəaliyyətinin intensivləşməsi nəticəsində yaranan ekoloji böhranlar – iqlim dəyişiklikləri, biomüxtəlifliyin azalması, təbii resursların tükənməsi – təkcə təbiətə deyil, eyni zamanda insanın sağlamlığına, sosial rifahına və ümumilikdə cəmiyyətin davamlı inkişafına ciddi təhlükə yaradır. Bu proseslər ekoloji təhlükə anlayışını müasir dövrün əsas qlobal problemlərindən birinə çevirmişdir.

Təbriz Əliyevin təbirincə desək, "*ekoloji təhlükə – insan və cəmiyyətin həyati vacib maraqlarına, ətraf mühitə, antropogen və təbii təsirlər nəticəsində təhlükə yaradan vəziyyətdir*" [4,s.17]. Bu yanaşma ekoloji problemlərin yalnız ekosistemlə məhdudlaşmadığını, birbaşa insan və cəmiyyətin təhlükəsizliyi ilə bağlı olduğunu göstərir.

Ekoloji təhlükələrin qlobal xarakter daşıması ekoloji təhsilin beynəlxalq hüquqi sənədlərdə də prioritet istiqamət kimi tanınmasına səbəb olmuşdur. Birləşmiş Millətlər Təşkilatının "Davamlı İnkişaf üçün 2030 Gündəliyi"ndə keyfiyyətli təhsil (Məqsəd 4) ekoloji təhlükələrin azaldılması və davamlı inkişafın təmin olunmasının əsas vasitəsi kimi göstərilir.

Eyni zamanda, Ətraf mühit və inkişaf üzrə Rio Bəyannaməsi (1992) ekoloji problemlərin həllində ictimai iştirakçılığın və maarifləndirmənin vacibliyini xüsusi vurğulayır. Orhus Konvensiyası isə ekoloji məlumatlara çıxış, qərarların qəbulunda iştirak və ədalət mühakiməsinə çıxış hüquqlarını təmin etməklə ekoloji demokratiyanın hüquqi əsaslarını müəyyən edir. Bu beynəlxalq aktlar ekoloji təhsilin demokratik cəmiyyətin formalaşmasında və ekoloji təhlükələrin qarşısının alınmasında mühüm rol oynadığını təsdiq edir.

Onu da nəzərə almaq lazımdır ki "*cəmiyyətin inkişafının elə bir sahəsi yoxdur ki, orada ekologiyadan istifadə etmək lazım olmasın* [3, s. 31]. Bu baxımdan ekoloji təhlükələrin qarşısının alınmasında texnoloji və hüquqi tədbirlərlə yanaşı, ekoloji təhsil mühüm rol oynayır və müasir pedaqoji prosesin prioritet istiqamətlərindən biri kimi çıxış edir.

Ekoloji təhsil fərdin təbiətə münasibətinin formalaşdırılması, ekoloji bilik, bacarıq və dəyərlərin sistemli şəkildə mənimsədilməsi ilə yanaşı, ekoloji təhlükələri dərk edən və onlara qarşı məsuliyyətli mövqe nümayiş etdirən şəxsiyyətin yetişdirilməsini nəzərdə tutur. Bu baxımdan ekoloji təhsil yalnız maarifləndirici deyil, həm də preventiv və sosial xarakter daşıyır.

E.Muradova özünün "Demokratik ekoloji təhsilin prinsipləri" adlı monoqrafiyasında eko-

loji təhsilin əhalinin regional inkişafının əsasını təşkil etdiyini xüsusi vurğulayır. Müəllifə görə, ekoloji problemlərin mahiyyəti və təsir dairəsi regionların sosial-iqtisadi xüsusiyyətləri ilə birbaşa bağlı olduğundan, ekoloji təhsilin məzmunu və təşkili də regional ehtiyaclar nəzərə alınmaqla formalaşdırılmalıdır. Məhz bu səbəbdən ekoloji təhsildə demokratiya prinsiplərinin tətbiqi zəruri şərt kimi çıxış edir. Muradova qeyd edir ki, demokratik ekoloji təhsil əhalinin yalnız məlumatlandırılmasını deyil, eyni zamanda onların ekoloji qərarların qəbulunda fəal iştirakını təmin etməlidir. Açıq dialoq, ictimai müzakirələr, bərabər imkanlar və yerli icmaların təşəbbüslərinin dəstəklənməsi ekoloji təhlükələrin vaxtında müəyyən edilməsinə və qarşısının alınmasına şərait yaradır. Bu yanaşma regionlarda ekoloji məsuliyyətin formalaşmasına, ətraf mühitə münasibətdə passiv müşahidəçi deyil, fəal vətəndaş mövqeyinin yaranmasına xidmət edir.

Bundan əlavə, müəllifin fikrincə, ekoloji təhsildə demokratik mühit şəffaflığın və hesabatlılığın təmin olunmasına, ekoloji biliklərin mərkəzdən regionlara bərabər şəkildə yayılmasına imkan yaradır və nəticədə, ekoloji təhsil regional inkişafın yalnız iqtisadi deyil, həm də sosial və mədəni dayanıqlığını gücləndirən mühüm amilə çevrilir. Beləliklə, E. Muradovanın yanaşması ekoloji təhsilin demokratik prinsiplər əsasında qurulmasının həm regional inkişaf, həm də ekoloji təhlükələrin azaldılması baxımından strateji əhəmiyyət daşıdığını əsaslandırır [5, s. 4].

Bu fikirlər onu göstərir ki, ekoloji təhsil yalnız mərkəzləşdirilmiş yanaşma ilə deyil, ictimai iştirakçılıq, açıq qərarvermə və bərabər imkanlar prinsipləri əsasında həyata keçirilməlidir. Demokratiya ekoloji biliklərin regionlar üzrə yayılmasını, yerli icmaların ekoloji təhlükələrə qarşı fəal mövqe tutmasını və qərarların qəbulunda iştirakını təmin edən əsas mexanizmdir.

UNESCO-nun yanaşmasına görə, ekoloji təhsil davamlı inkişafın əsas komponenti olmaqla, təhsilalanlarda məsuliyyətli davranış və ekoloji etik dəyərlərin formalaşmasına yönəlir [6]. Pedaqoji baxımdan ekoloji təhsil inteqrativ xarakter daşıyır və fənlərarası əlaqələr əsasında həyata keçirilir ki, bu da ekoloji təhlükələrin sosial və hüquqi aspektlərdə dərk olunmasına imkan yaradır.

Ekoloji təhsil müasir pedaqoji prosesdə:

Müasir pedaqoji prosesdə ekoloji təhsilin prioritet kimi çıxış etməsi aşağıdakı amillərlə şərtlənir:

– ekoloji təhlükələrin qlobal və kompleks xarakter alması;

– davamlı inkişaf məqsədlərinin təhsil sisteminə inteqrasiyası;

– ekoloji şüurun erkən yaşlardan formalaş

– insan, cəmiyyət və ətraf mühit arasında ta dırılmasının zəruriliyi;razlığın pozulması riskinin artması;

– demokratik iştirakçılığın ekoloji qərarların effektivliyinə təsiri.

Nəzərdən keçirdiyimiz tədqiqatlar göstərir ki, ekolojiyönlü təlim metodlarının tətbiqi təhsilalanlarda tənqidi düşünmə, sosial məsuliyyət və ekoloji təhlükələrə qarşı həssas vətəndaş mövqeyinin formalaşmasına müsbət təsir edir. Bu baxımdan ekoloji təhsil müasir pedaqoji prosesin strateji komponenti kimi çıxış edir.

Azərbaycan Respublikasında ekoloji təhlükələrin azaldılması və ekoloji mədəniyyətin formalaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biri olmaqla, müasir pedaqoji pro sesin strateji hədəfləri ilə birbaşa uzlaşır. Bu yanaşma onu göstərir ki, ekoloji problemlərin və ekoloji təhlükələrin qarşısının alınması yalnız inzibati və texniki tədbirlərlə deyil, ilk növbədə təhsil vasitəsilə mümkün hesab edilir. Məhz bu baxımdan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ekoloji mədəniyyətin formalaşdırılması və davamlı inkişaf prinsiplərinin təhsil prosesinə inteqrasiyası əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir [2]. Bu sənəd ekoloji təhsili pedaqoji prosesin ayrılmaz tərkib hissəsi kimi qəbul edərək, onun prioritet istiqamət statusunu təsdiqləyir.

Bununla yanaşı, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ekoloji maarifləndirmənin və ekoloji təhsilin hüquqi əsaslarını müəyyən etməklə, bu sahənin sistemli və məqsədyönlü şəkildə inkişafını normativ səviyyədə təmin edir [1]. Qanunda əksini tapan müddəalar ekoloji təhlükələrin qarşısının alınmasında maarifləndirmənin və təhsil prosesinin rolunu xüsusi vurğulayır. Beləliklə, ekoloji təhsil təkcə pedaqoji fəaliyyət sahəsi deyil, eyni zamanda dövlətin ekoloji təhlükəsizlik siyasətinin mühüm aləti kimi çıxış edir və müasir pedaqoji prosesdə prioritet istiqamət statusu qazanır.

**Nəticə.** Aparılan təhlillər və müxtəlif müəlliflərin elmi yanaşmalarının müqayisəli öyrənilməsi göstərir ki, ekoloji təhsil təkcə təbiətin mühafizəsinə yönəlmiş biliklər sisteminin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şəxsiyyətin dünyagörüşünün, dəyər yönümlərinin və sosial məsuliyyətinin formalaşmasında mühüm pedaqoji mexanizm kimi çıxış edir. Yerli və xarici tədqiqatçıların (ekoloji mədəniyyət, davamlı inkişaf və ekoloji təhlükəsizlik konsepsiyalarını irəli sürən müəlliflərin) mövqeləri sübut edir ki, ekoloji təhsil müasir pedaqoji prosesin prioritet istiqaməti olmaqla ekoloji təhlükələrin qarşısının alınmasında, regional və qlobal inkişafın təmin edilməsində, eləcə də demokratik cəmiyyətin formalaşmasında həlledici rol oynayır.

Müəlliflərin əksəriyyəti ekoloji şüurun formalaşdırılmasını davamlı inkişaf strategiyasının əsas şərti kimi qiymətləndirir və bu prosesin erkən yaşlardan başlayaraq sistemli şəkildə təşkil edilməsinin vacibliyini vurğulayırlar. Bu yanaşmalarla səsləşən müəllifin irəli sürdüyü əsas tezis ondan ibarətdir ki, ekoloji təhlükə anlayışı pedaqoji baxımdan yalnız elmi termin kimi deyil, həm də təlim-tərbiyə prosesinin məzmununda aparıcı kateqoriya kimi təqdim edilməlidir. Məhz bu halda təhsilalanlarda təbiətə qarşı məsuliyyətli münasibət, ekoloji riskləri dərk etmək bacarığı və sosial fəallıq formalaşa bilər.

Qeyd olunanları ümumiləşdirib bu nəticəyə gəlmək mümkündür ki, ekoloji şüura malik, məsuliyyətli və sosial baxımdan fəal şəxsiyyətin yetişdirilməsi yalnız demokratik prinsiplərə əsas lanan, beynəlxalq təhsil standartlarına uyğun və milli xüsusiyyətləri nəzərə alan ekoloji təhsil vasitəsilə mümkündür. Bu kontekstdə ekoloji təhlükə anlayışının pedaqoji prosesin əsas kateqoriyalarından biri kimi elmi əsaslarla təqdim edilməsi müasir təhsilin qarşısında duran prioritet vəzifələrdən biri kimi qiymətləndirilməlidir.

**Problemin aktuallığı**. Müasir dünyada iqlim dəyişikliyi, təbii resursların tükənməsi və antropogen təsirlər nəticəsində yaranan qlobal ekoloji problemlər pedaqoji prosesdə yeni yanaşmaların tətbiqini qaçılmaz edir ki, bu da tədqiqatın əsas aktuallığını təşkil edir. Ekoloji təhsilin yalnız təbiətşünaslıq biliklərinin ötürülməsi ilə məhdudlaşmayıb, həm də sosial məsuliyyət və aktiv vətəndaş mövqeyinin formalaşdırılmasında həlledici rol oynaması məsələnin strateji əhəmiyyətini artırır.

**Problemin elmi yeniliyi** "ekoloji təhlükə" anlayışının ilk dəfə olaraq pedaqoji prosesin fundamental kateqoriyalarından biri kimi təqdim edilməsində və bu anlayışın təlim-tərbiyə sisteminin məzmununa inteqrasiyasının zəruriliyinin əsaslandırılmasındadır. Eyni zamanda, ekoloji təhsilin demokratik prinsiplər əsasında qurulmasının regional inkişafın və sosial-mədəni dayanıqlığın gücləndirilməsində mühüm amil olduğu müəllif tərəfindən elmi cəhətdən dəyərləndirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının "Ətraf mühitin mühafizəsi haqqında" Qanunu // 8 iyun 1999-cu ildə qəbul edilmişdir. – Bakı, 1999.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. – Bakı, 2013.
3. Əliyev, A.H. Ekoloji mühitin müasir vəziyyəti və ekoloji təhsil / A.H.Əliyev, Y.Q.Əliyev // "Ekoloji problemlər və ekoloji təhsil" mövzusunda respublika elmi konfransının materialları, Bakı: ADPU, – 23–24 aprel, – 2013. – s. 197.
4. Əliyev, T.N. Ekoloji menecment / T.N.Əliyev. – Bakı: Çinar-Çap, – 2006. – 454 s.
5. Muradova, E.Ə. Demokratik ekoloji təhsilin prinsipləri: Monoqrafiya / E.Ə.Muradova. – Bakı: Elm, – 2009. – 445 s.
6. UNESCO. Education for Sustainable Development / UNESCO. – Paris: UNESCO, – 2017.


**Redaksiyaya daxil olub**: 04.05.2026